AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİLİYİ
SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNİN NƏZDİNDƏ
SUMQAYIT DÖVLƏT TEXNİKİ KOLLECİ

GEYİMLƏRİN KONSTRUKSİYASI VƏ MODELLƏŞDİRİLMƏSİ

Fənnindən mühazirələr

Orta ixtisas təhsil müəssisələrində
fənnin tədrisi üçün nəzərdə tutulub

SUMQAYIT-2020

Mühazirə mövzuları

1. Geyimlərin hissələrinin konstruksiyası
2. Ləçək və önlüyün hesabatı və çertyojunun qurulması
3. Qadın geyimlərinin çeşidləri
4. Çiyinli geyimlər
5. Kəmərli geyimlərin konstruksiyası və modelləşdirilməsi
6. Düz yubkanın hesabatı və çertyojunun qurulması
7. Düz yubkanın modelləşdirilməsi
8. Koketkalı düz yubkalar
9. Konus şəkilli yubkaların konstruksiyası və modelləşdirilməsi
10. Konus şəkilli yubkaların növləri
11. Bir tərəfə yatan qatlamalı düz yubka
12. "Günəş" yubkanın hesabatı
13. "Günəş" yubkanın ülgülərinin parça üzərində yerləşdirilməsi
14. "Yarım günəş" yubkanın hesabatı
15. Qadın şalvarının əsasının konstruksiyası
16. Gen-bol biçimli şalvarlar
17. Gen-bol biçimli şalvarının modelləşdirilməsi
18. Ciblərin hesabatı və qurulması
19. Gecə köynəyinin konstruksiyası və modelləşdirilməsi
20. Qol əsasının qurulması
21. Birtikişli qollar
22. İkitikişli qollar
23. Reqlan formalı qolların modelləşdirliməsi
24. Yarım reqlan formalı qolların modelləşdirilməsi
25. Qolların modelləşdirilməsi
26. Qol yerində və qolun çiyin dairəsində çərtiklərin yerləşdirilməsi
27. Qadınlar üçün düz siluetli bluzkanın konstruksiyası
28. Qadınlar üçün qasmalı bluzkanın konstruksiyası
29. Boyun kəsiyinin formasında köbənin konstruksiyası
30. Qadınlar üçün qolu bütöv biçilmiş bluzkanın konstruksiyası

1 . GEYİMLƏRİN HİSSƏLƏRİNİN KONSTRUKSİYASI

Tikiş məmulatları bir neçə hissənin birləşdirilməsi nəticəsində əmələ gəlir. Hər bir geyim hissəsində müəyyən funksiya vardır. Əsas hissələrə məmulatın ön və arxa tərəfləri və qolları aid olur. Əlavə hissələrə isə yaxalıqlar, manjetlər, ciblər, köbələr və.s aiddir. Ciblərin, manjetlərin və yaxalıqların konstruksiyası və forması məmulatın modelindən aslıdır. Bu hissələr məmulatın öz parçasından və bəzəndə parçaya uyğun gələn digər parçalardan hazırlana bilər.

Modeldən asılı olaraq geyimin hissə və hissəcikləri müxtəlif olur. Onların müxtəlifliyi formadan, ölçüdən asılı ola bilir. Eyni biçimli geyim müxtəlif modeldən tikilə bilər. Geyimin modelini və konstruksiysını seçdikdə ondan hansı məqsədlə istifadə ediləcəyi (təyinatı), parçanın strukturu, tərkibi, naxışları, geyimin silueti (forma) nəzərə alınmalıdır.

Konstruksiyasından asılı olaraq geyimlər iki və daha çox hissədən ibarət ola bilər. Əsas hissələrin (qabaq və arxa hissələr, qol və yaxalıq) konstrukiv xüsusiyyətləri bütün geyimlərdə demək olar ki, eynidir. Məsələn, palto, pencək, jaket, gödəkçə, plaş kimi geyimlərin əsas hissələrini qabaq və arxa hissələr, qol və yaxalıq təşkil edir.

Aşağıdakı şəkildə kişi şalvarının hissə və hissəcikləri verilmişdir: arxa hissə, qabaq hissə, ilgək yeri, düymə altı, araqatı hissələri.



Şalvarın hissə və hissəcikləri

1 - Arxa hissə
2 – Qabaq hissə
3 – İlgək yeri
4 – Düymə altı
5 – Araqatı materialından olan hissələr

2 . LƏÇƏK VƏ ÖNLÜYÜN HESABATI VƏ ÇERTİYOJUNUN QURULMASI

Ləçək və önlük xüsusi geyimdir. Ev şəraitində və müəssələrdə mətbəx işlərinin yerinə yetirilməsi üçün istifadə olunur. Aşağdakı şəkildə müxtəlif işləri yerinə yetirmək üçün xüsusi ləçək və önlük verilmişdir.

Önlüyün biçilməsi üçün bədəndən ölçülər düzgün götürülməlidir.Bunun üçün aşağdakı qaydalara riayət etmək lazımdır.

1.Ölçü bədənin sağ tərəfindən götürülməlidir.

2.Belə mütləq şunur bağlamaq lazımdır.

3.Ölçülərin götürülməsi zamanı ölçü götürülən adam düz və sərbəst dayanmalıdır.

4.Ölçü sm lentası ilə götürülür.

5.Uzunluq ölçüləri bütöv və dairəvi ölçülərin isə yarısı yazılır.

Önlüyü biçmək üçün əsasən aşağdakı ölçülər götürülür.

1.Önlüyün döş hissəsinin uzunluğu - Uö.d (bel xəttindən yuxarı tələb olunan uzunluğa qədər)

2.Önlüyün aşağısının uzunluğu - Uö.a (bel xəttindən aşağı tələb olunan uzunluğa qədər)

3.Bel yarım çevrəsi - By.ç (bədənin ən ensiz yerindən götürülür)

4.Çanaq yarım çevrəsi – Çy.ç (çanağın ən enli yerindən götürülür).



Önlük bir neçə hissədən ibarət ola bilər. Məsələn, önlüyün döş hissəsi, aşağı hissəsi, bretel, kəmər, ciblər və s.

Önlüyün hissələri və xətlərin adlara aşağdakı sxemdə vermişdir.



3 . QADIN GEYİMLƏRİNİN ÇEŞİDLƏRİ

Qadın geyimlərinə aid olan bütün geyimlər **2 əsas qurupa** bölünür.

1.Kəmərli məmulatlar

2.Çiyinli məmulatlar

Kəmərli məmulatlar qurupuna yupkalar şalvarlar şortiklər aiddir. Kəmərli məmulatlar çiyinli məmulatlardan fərqi ondadır ki, kəmərli məmulatlar bədənə **bel xəttindən bağlıdır**. Onlar bədənə kip yapışan hissəsi **bel xəttindən çanaq xəttinə** qədər olur. Qalan sahələrin bədənə yapışmış modeldən biçimdən və məsuliyyətdən aslıdır.

Çiyinli məmularlarda isə geyimlər bədənə kip yapışan yeri **çiyin hesab** olunur. Kəmərli məmulatlar qadın geyimin aşağı hissəsini təşkil edir. Kəmərli məmulatlar adətən **pencək jaket** və s. isə geyim olur. Yubkalar əsasən aşağdakı quruplara bölünür.

1.Düz və klinkalar

2.Trapesiya formalı çox taxtalı qodel və azacıq eyniləşdirilmiş yubkalar

3.Büzməli yupkalar

4.Qatlamalı yupkaları

5.Kloş yupkalar

Biçilməyə görə yupkaları əsasən **3 qrupa bölünür**.

1.Düz

2.Klin

3.Kloş

1. Düz yupkalar yapışıq siluetdə 1tikişli 2 tikişli 3 tikişli qatlamalı qatlamasız büzməli hazırlana bilir. Yupkaların yuxarı hissəsi **karjazla** rezinlə kəmərlə hazırlana bilər. Əriş sapı məmulatın uzunu boyunca keçir.

2. Klin yupkalar 4, 6, 8, 10, 12 kilindən ibarət olur. Klinlər aşağı xətdə doğru eniləşmiş olurlar. Əriş sapı hər kilinin ortasından keçir.

3. Konusvarı yupkalar bir qayda olaraq dairənin bir hissəsində yerləşirlər. Ön hissənin ortasında əriş sapı məmulatın uzuna boyunca keçir. Qalan sahələrdə isə əriş sapı müxtəlif istiqamətlərdə keçir. Kəmərli məmulatların çertiyojunun qurulmasına və öyrənilməsinə başlamaq üçün əvvəlcə modeli seçmək lazımdır. Bütün başqa geyimlər kimi yupkada bədənə yaxşı oturmalı insanın boyuna və ölçüsünə uyöun olmalıdır. Yupkanın çertiyojunun qurulması zamanı bədəndən aşağdakı ölçülər götürülür.



4 . ÇİYİNLİ GEYİMLƏR

Çiyinli geyimlərə qadın uşaq və kişi geyimlərindən bədənə çiyin hissəsindən yapışan bütün geyimlər aiddir. Məsələn donlar çiyinli geyimlərə aiddir. Onlar bütöv biçilmiş bədən çanaq xəttindən döş xəttindən kəsik qolu və qolsuz yaxlıqla və yaxalıqsız ola bilərlər. Beli kəsik paltarlar lift və yupkadan ibarətdir. Donun bağlanması arxa hissədə ön hissədə və yan kəsikdə yerləşdirilə bilər. Donlar aborka kurijeva lenta düymələr qatlamalar və başqa bəzək növləri ilə işlənə bilərlər. Donlar müxtəlif parçalardan hazırlana bilər. Pambıq kətan yun və s. suni və sintetik parçalardan ola bilər. Donlar üçün parça seçilərkən əvvəlçədən dəqiqləşdirmək lazımdır ki, bu paltarı hansı məqsədlə geyiniləcəkdir. Yəni gündəlik geyiniləcək idman üslubu geyimdir ev geyimidir yaxudda təntənəli günlərdə geyiniləcək. Parçaları növləri fəsildən aslı olaraq seçilir. Don üçün fasonu və paraçanı seçərkən bədən xüsusiyyətlərini də və yaş əlamətlərini nəzərə almaq lazımdır. Ayrı-ayrı hissələr və düzgün seçilmiş siluet forması bədəndə olan qüsurları görünməz edər və gizlədə bilər.

Aşağıdakı şəkildə müxtəlif siluetli çiyinli geyimlər verilmişdir.



5 . KƏMƏRLİ GEYİMLƏRİN KONSTRUKSİYASI VƏ MODELLƏŞDİRİLMƏSİ

Yupka bel və ya çanaq hissəyə yatma dərəcəsi onun formasından aslıdır. Ensiz və ətəyi dar yupkada bel və çanaq xətti aydın seçilir. Yupka enli olduqda bel xətti seçilərsə çanaq xətti azacıq müşahidə olunur. Bir tikişli ensiz yupka düz siluetdir. Bel və çanaq xətti aydın seçilir. Ətəyi ilə çanaq xəttinin eni eyni biçilir. Arxadan bir tikiş bel xəttində xiştəkləri olur. Konstruksiya cəhətdən belə yupkalar nümunəvi hesab edilir. Bu konusturuksiya əsasında bir sıra başqa yupkalar üçün ülgü çertiyoju qurula bilər. Məsələn, 2 tikişli, 4 tikişli, 6 tikişli, kloş və s. Yupka üçün seçilmiş parçanın əriş sapı geyimin uzununa arğac sapı isə eninə yönəlmiş olmalıdır. Xiştəyin yönəlişinə və yerinə ciddi fikir verilməlidir. Bəzi modeldən bu tələb dəyişədə bilər. Aşağdakı şəkildə 1 tikişli düz yupkanın sxemi verilmişdir.



6 . DÜZ YUPKANIN HESABATI VƏ ÇERTYOJUNUN QURULMASI

Düz yupkanın çertiyojunun qurarkən tikiş qatlama qarsaq və digər ehtiyat payları nəzərdə tutulmur. Düz yupkanın çertiyojunu qurmaq üçün aşağdakı ölçülərin götürülməsi vacibdir.

1.Bel yarım çevrəsi

2.Çanaq yarım çevrəsi

3.Yupkanın ümumi uzunluğu

Yupkanın eni çanaq çevrəsinə əsasən hesablanır. Bu ölçü bel yarım çevrəsindən nəzərə çarpacaq dərəcədə böyük olur. Həmin böyüklüyü aradan qaldırmaq üçün qatlamalardan qarsaqlardan istifadə olunur. Deməli çanaq yarım çevrəsi ilə bel yarım çevrəsi arasındakı fərq qarsaqlar vastəsi ilə itirmək mümkündür. Yupkalarda əsasən qarsaqlar belə yerləşdirilir: 2 qarsaq ön hissədə, 2 qarsaq arxa hissədə və bir qarsaq yan xətdə.

DÜZ YUPKANIN HİSSƏLƏRİ

Müxtəlif qarsaqların eni və uzunluğu eyni deyildir.Bu bədənin həmin hissəsinin formasından aslıdır.Adətən ən enli və uzun qarsaqlar yan qarsaqlardır.Ən ensiz və qısa qarsaqlar isə ön qarsaqlardır.Düz yupkanın əsasının ülgüsü üzərində müxtəlif dəyişiklik etməklə müxtəlif formalı yupka modelləri almaq mümkündür.

Bir tikişli düz yupkalar.

Bir tikişli düz yupkalar düz siluetlidir.Bel və çanaq xətti aydın seçilir.Ətəyi ilə çanaq xəttinin eni eyni biçilir.Arxadan bir tikişli bel xəttində qarsaqları olur.Belə yupkalar adətən klasik yupka nümunəsi sayılır.Bu yupkaların əsasında bir sıra digər yupkalar qurulur.məsələn 2 tikişli 4 tikişli

İKİ TİKİŞLİ DÜZ YUPKALAR

İki tikişli düz yupkalar əsasən ön və arxa hissədən ibarət olur.Hissələr bir-birinə yan hissədən birləşdirilirlər.Belə yupkalarda qarsaqlardan istifadə olunur.Enli düz yupkalarda bel xətti müşahidə olunur.Onba xətti isə **(çanaq)** müşahidə olunmur.Belə yupkaların bağlanması adətən arxa tərəfində və sol tərəfində ola bilər.Modadan aslı olaraq qabaq hissədə və bağlama yeri qoymaq olar.Qatlamanı düz yupkalarda isə qatlama onun bütün sahəsi boyu yaxud qrup halında ola bilər.Formasına görə qatlamalı yupkalar aşağdakılardır.

Xırda-xırda

Dərin

Bir tərəfli

Qarşı-qarşıya

Bant şəkilli

Nazik və yumuşaq parçadan iri qatlamalı sıx parçadan isə həddən artıq kiçik qatlamalar qoyulması məsləhət deyildir.Bir tərəfli qatlamalar eni orta hesabla **4.6 sm** bant şəkili qatlamanın eni isə **6.8.sm** ola bilər.

7 . Düz yubkanın modelləşdirilməsi

Düz yubkanın əsasının ülgüsü üzərində müxtəlif dəyişiklik etməklə çox müxtəlif formalı yubka modelləri almaq olar. Aşağıdakı şəkildə müxtəlif yubkalar təsvir olunub. Bu yubkaları düz yubkanın ülgüsü əsasında modelləşdirməklə tikmək olar. Bu yubka fasonlarını müqayisə etməklə görmək olar ki, onların əksəriyyətinin aşağısı enliləşdirilib; bəziləri qatlamalıdır (ön hissədə, arxada, yanda); bəzək üçün əlavə detallardan, furnituradan, tikişlərdən, tikələrdən istifadə olunub.

Yubkanın aşağısının enliləşdirilməsini müxtəlif üsullarla yerinə yetirmək olar.

1 . Yan xətt üzrə yubkanın enliləşdirilməsi. Aşağı xətti 2-3 sm uadıb alınan nöqtəni B_5 nöqtəsi ilə birləşdirirlər.



2 . Qarsaqları bir az, yaxud tam bağlamaqla aşağı kəsiyin enliləşdirilməsi. Qarsaqların mərkəz xətlərini aşağıya qədər uzadıb ülgünü kəsirlər və qarsağı bağlayırlar.



3 . Yubkanın aşağısının çox enliləşdirilməsi aşağıdakı ardıcıllıqla yerinə yetirilir. Qarsaqların mərkəz xətlərini aşağıya qədər uzadırlar, sonra B_2B_4 və B_2B_3 məsafələrini Yariya bölürlər və bölgü nöqtələrindən şaquli xətt keçirirlər. Çəkilmiş xətlər boyunca ülgünü kəsirlər və aşağıda kəsilmiş hissələri bir-birindən 3-5 sm yelpik şəklində aralayırlar.



8 . Koketkalı düz yubkalar

Qadın geyimləri içərisində müxtəlif modalı yubkalar xüsusi yer tutur. Yubka qadın geyimlərinin aşağı hissəsidir. Onlar pencək, kofda və jaketlə birlikdə və ya ayrıca hazırlanır. Pencək, kofda və ya jaketlə birlikdə hazırlanarkən dəst halında olduğu üçün hər iki məmulatın kompozisiyası eyni olmalıdır. Bel xətti yubkanın dayaq xətti hesab edilir.

Yubkanın əsas formasını saxlamaqla qasma, koketka, zeh, köbə, bəzək naxışları əlavə edərək yubkanın görünüşünü dəyişmək olar.

Yubkanın belə və ya ombaya yatma dərəcəsi onun formasından asılıdır. Çünki ensiz və ətəyi dar yubkada bel və omba xətti aydın seçilir.

Yubka enli olduqda bel xətti seçilirsə, omba xətti azacıq müşahidə olunur. Bu halda omba xətti dayaq xətti hesab olunaraq aşağıya doğru enlənir.

Koketkalı yubkalar düz yubkanın modelləşdirilməsinin variantlarından biridir. Düz yupkaların dəyişilmiş bir modelidə koketkalı düz yupkalardır. Koketkalı yupkanın modelləşdirilmiş aşağıdakı şəkildə verilmişdir.



Koketkalı düz yubkanın modelləşdirilməsi

9 . KONUS ŞƏKİLLİ YUPKALARIN KONSTRUKSİYASI VƏ MODELLƏŞDİRİLMƏSİ

Konik yaxud kloş yupkalar ya tam dairə şəklində olur ya da dairənin bir hissəsini təşkil edir. Onları 7 qrupa bölmək olar.

1.Kloş

2.Böyük kloş

3.Kiçik zəng

4.Böyük zəng

5.Orta zəng

6.Yarım günəş

7.Günəş

Bu yupkaların bel çanaq və aşağı xətləri dairənin hissəsini təşkil edir. Bu yupkaların hamısının çertiyoju eyni ardıcılıqla qurulur. Burada dəyişən k əmsalıdır. Bel xəttinin və aşağı xəttin yuxarıya qaldırılması hər yupka qrupu üçün müxtəlifdir və bu aşağdakı cədvəldə öz əksini tapır.

Yubkaların növləri	Əmsal K	Bel xəttinin qaldırılması	Aşağı xəttin qaldırılması
Klyoş	1,4	0,5	1,0
Böyük klyoş	1,2	0,75	1,5
Kiçik “zəng”	1,0	1,0	2,0
Orta “zəng”	0,9	1,25	2,5
Böyük “zəng”	0,8	1,5	3,0
“Yarımgünəş”	0,64	1,75	3,5
“Günəş”	0,32	2,0	4,0

Bu yupkaların çertyojunu qurmaq üçün əvvəlcə bel dairəsinin radiusunu hesablamaq lazımdır. Radius **R=K x By.ç** düsturu ilə hesablanır. Burada **k əmsaldır.**Müxtəlif yupkalar üçün müxtəlif our.Belə yupkalarda əriş sapının istiqaməti **45 dərəcə** bucaq altında olan yerlərdə yupka geyilən zaman uzanır.Bunun qarşısını almaq üçün cədvələ uyğun olaraq bel xətti və aşağı xətt qaldırılır.



10 . Konus şəkilli yubkaların növləri

Konik yaxud kloş yupkalar ya tam dairə şəklində olur ya da dairənin bir hissəsini təşkil edir. Onları 7 qrupa bölmək olar.

1.Kloş

2.Böyük kloş

3.Kiçik zəng

4.Böyük zəng

5.Orta zəng

6.Yarım günəş

7.Günəş

Bu yupkaların bel çanaq və aşağı xətləri dairənin hissəsini təşkil edir. Bu yupkaların hamısının çertiyoju eyni ardıcılıqla qurulur. Burada dəyişən k əmsalıdır. Bel xəttinin və aşağı xəttin yuxarıya qaldırılması hər yupka qrupu üçün müxtəlifdir və bu aşağdakı cədvəldə öz əksini tapır.

Yubkaların növləri	Əmsal K	Bel xəttinin qaldırılması	Aşağı xəttin qaldırılması
Klyoş	1,4	0,5	1,0
Böyük klyoş	1,2	0,75	1,5
Kiçik “zəng”	1,0	1,0	2,0
Orta “zəng”	0,9	1,25	2,5
Böyük “zəng”	0,8	1,5	3,0
“Yarımgünəş”	0,64	1,75	3,5
“Günəş”	0,32	2,0	4,0

Orta “zəng” şəkilli yubkanın hesabatı və çertyojunun qurulması





11 . Bir tərəfə yatan qatlamalı yubka

Yubkada qatlamalar. Yubkada qatlamalar bir və iki tərəfə istiqamətlənmiş ola bilərlər. Qatlamaları qoyarkən onların hər biri üçün nə qədər parça lazım olduğuna nəzər salmaq lazımdır. Yubkanın ülgüsünü parça üzərində yerləşdirərkən qatlamanın qat xəttini 1 sm qatın boşluğuna tərəf maili çəkmək lazımdır. Qatlama yubkanın hissələrinin orta xətti boyunca yerləşdikdə ülgünün orta xətti parçanın qat xəttindən qatın dərinliyinin yarısı qədər (birtərəfli qatlamalarda) və qatın dərinliyi qədər (üzbəüz qatlamalarda) məsafədə qoyulur.

Qatlamaları qarsaqların mərkəz xətləri boyunca yerləşən yubkanı modelləşdirmək üçün ülgü üzərində qarsaqların mərkəz xətləri aşağıya qədər uzadılır və bu xətlər üzrə ülgü kəsilir və bu hissələri parça üzərində yerləşdirərkən onları bir-birindən qatın dərinliyi qədər (birtərəfli qatlamalarda) və qatın iki qat dərinliyi qədər (iki tərəfə istiqamətlənmiş qatlamalarda) aralayırlar.



12 . GÜNƏŞ YUPKANIN HESABATI

Günəş yupkanın çertiyojunun qurulması üçün aşağdakı ölçülərin götürülməsi lazımdır.

1.Bel yarım çevrəsi-Byç

2.Çanaq yarım çevrəsi-Çyç

3.Kürəyin belə qədər uzunluğu-Kbqu

4.Yupkanın uzunluğu-Yu

Burada dəyişən **K əmsalı** belədir.

K=0.32

O nöqtəsindən bir-birinə perpendikulyar 2 xətt çəkilir.

1.R radyusu ilə qövs çəkilir. Üfüqi xətlə kəsişə nöqtələri T T1 ilə işarə edilir.

2.R1 radyusu ilə çanaq xətti çəkilir və üfüqi xətlə kəsişməsi B B1 ilə i.arə edilir.

R1=R+Kbqu:2

3.R2 radyusu ilə yupkanın aşağı xətti çəkilir və kəsişmə nöqtələri H H1 ilə işarə edilir.

R2=R+Uy

Ön və arxa hissədə bel xəttinin və aşağı xəttin yuxarıya qaldırılması yarımgünəş yupkada olduğu kimidir. **T T1** nöqtələri bel xəttinin şaquli xətlə kəsişmə nöqtəsi ilə nazik xətlə birləşdirilir. Bu xətlər yarıya bölünərək **T2** ilə işarə edilir. O nöqtəsi **T2** nöqtələri ilə birləşdirilib aşağdakı xətti kəsənə qədər uzadılır. Kəsişmə nöqtəsi **H2** ilə işarə edilir. Sonra **T2-dən 2l sm və H2 4sm** qeyd edilib bel xətti və aşağı xətti yuxarı qaldırırıq. Bu əməliyyat eyni ilə arxada təkrar olunur. Yupkanın kontur xətti qalınlaşdırılır.

Bu yubkalar sadə yubkalar sayılır. Onların qarsağı olmur. Belə yubkalar çox vaxt ülgüsüz, birbaşa parça üzərində biçilir. Birtikişli klyoş yubkanı biçmək üçün 1,40 x 1,40 və ya 1,50 x 1,50 sm kvadrat şəkilli parça götürülür və 45° bucaq altında ikiqat qatlanır. Kromka hissəni kəsib çıxartmaq daha yaxşı olar və sm lentindən pərgar kimi istifadə etməklə bel xətti, omba xətti və ətək xətti qeyd olunur. Bu ətəyin çertyojunu qurmaq üçün əslində iki ölçü: By.ç və Uy ölçüləri götürülür. Lakin parçanın eni az və ya sifarişçinin Çy.ç böyük olarsa, onda yubka omba hissədən dar gələ bilər. Ona görə də Çy.ç ölçmək məqsədə uyğundur.


A
B
O
Ə
B2
B1
O1
O2
Ə1
Ə2
Ə3
Ə4
Ə5
əriş sapı
əriş sapı

13 . Günəş yubkanın ülgülərinin parça üzərində yerləşdirilməsi

Geyim konstruksiyasının çertyoju əsasında əsas ülgülər və köməkçi ülgülər hazırlanır. Ülgülər bildiyimiz kimi tikiş payı nəzərə alınmadan hazırlanır. Tikiş payları geyimin konstruksiyasından, kəsiklərin yerləşməsi və istiqamətindən, parçanın xüsusiyyətindən, istifadə ediləcək alət və avadanlıqlardan, texnoloji ardıcıllıqdan asılıdır.



14 . YARIM GÜNƏŞ YUPKANIN HESABATI

Yarım günəş yupkanın çertiyojunu qurmaq üçün aşağdakı ölçüləri götürmək lazımdır.

1.Bel yarım çevrəsi-B.y.ç

2.Çanaq yarım çevrəsi –Ç.y.ç

3.Kürəyin belə qədər uzunluğu-Kbqu

4.Yupkanın uzunluğu-Y.u

Bu yupkada **K=0.64**.O nöqtəsindən düz bucaq qurulur.**R=OT.OB** və **OH** radyusları ilə qövslər çəkilir.

Məmulatın bədənə düzgün oturması və əsas sapın çəpinə istiqamətdə yerləşdiyi sahələrdə yubkanın uzunluğunun düzəldilməsi üçün bel xətti 1,75, aşağı xətt 3,5 sç yuxarıya qaldırılır.



15 . QADIN ŞALVARININ ƏSASININ KONSTRUKSİYASI

Şalvarlar rahat geyim növüdür. Onları matrialından aslı olaraq hər mövsümdə geyinmək mümkündür. Qış şalvarları isti qalın parçadan hazırlanır. Yay şalvarları isə nazik matriallardan müxtəlif formalarda hazırlanması mümkündür. Məs:**aşağısı dar aşağısı manjetli aşağısı enliləşdirilmiş ayağı trapes şəkilli bağlanması qabaq və ya yan hissədən olan müxtəlif ciblərlə kəmərlərlə hazırlana bilər**. Bunlarla yanaşı klasik formada şalvarlar mövsümdən aslı olmayaraq daima dəbdə olur. Klasik formalı şalvarın çertiyojunun qurulması üçün bədəndən aşağdakı ölçülərin götürülməsi vacibdir.

№	Ölçülərin adları	Şərti işarələr	Ölçülərin miqdarı (sm-lə)
1 .	Bel yarımçevrəsi	By.ç	38
2 .	Çanaq yarımçevrəsi	Çy.ç	52
3 .	Diz yarımçevrəsi	Dy.ç	19
4 .	Topuq çevrəsi	Şa.e	18
5 .	Şalvarın taç uzunluğu yandan	Uş.y	98
6 .	Şalvarın dizə qədər uzunluğu	Uş.d	56
7 .	Oturacaq hündürlüyü	Oh	30

16 . GEN BOL BİÇİMLİ ŞALVARLAR

Gen bol şalvarların çertiyojunun qurulmasıda digər şalvarlarda olduğu qaydada aparılır. Ancaq bu şalvarlarda yan və adım kəsiyi xətləri oturacaq səviyyəsində aşağı xəttə qədər düz xətlə çəkilirş. Yaxudda düz səviyyəsində biraz əyriliklə çəkilir. Şalvarın aşağı xətləri üfiqi xətlər olur. Ön yarım hissənin qarsaq xətti boyunca bel xəttindən aşağı xəttə qədər kəsirlər və yuxarı hissəni bir-birindən aralayırlar. Məsələn **2+2** qarsaqları **3-4 sm** (hərəsi) olan kiçik qatlama ilə əvəz etmək olar. Ön hissə dağılmasın deyə daxilə ara qatı qoymaq lazım gəlir. Ara-qatının eni şalvarın ön hissəsinin eninə bərabər götürülür. Ancaq ara qatında heç bir şey əlavə edilmir. Ara qatı bant xəttinə və yan xəttə tikilir. Ara qatı cib kisəsinin daxili tərəfini əvəz edə bilər. Hansı şalvarı seçmək modadan və zövqdən aslıdır. Gen bol şalvarın modelləşdirilməsi və ara qatı cib kəsiyi aşağıdaki şəkildə verilmişdir.

17 . Gen-bol biçimli şalvarın modelləşdirilməsi

Şalvarın modelləşdirilməsi zamanı da lifin, yubkanın, qolun modelləşdirilməsində istifadə edilən üsullardan istifadə edilir. Koketkanı qurmaq üçün ülgü aşağı xətdən, qarsağən ucuna qədər kəsilir, qarsaq bağlanır, koketkanın xətti çəkilir, koketka kəsilir. Adətən qarsaq üstdən qoyma ciblə gizlədilir. Ciblər kəsik və kəsiyə tikilmiş ola bilərlər. Cib kisəsinin forması cibə giriş xəttindən asılıdır.



18 . CİBLƏRİN HESABATI VƏ QURULMASI

Ciblər formasına və konusturuksiyasına görə çox müxtəlif olur. Qadın geyimlərində ciblər funksional və dekorativ olmaqla 2 qrupa bölünür.

1.Funksional ciblər adından məlum olduğu kimi hər hansı bir funksiyanı yerinə yetirmək üçündür.

2.Dekorativ ciblər isə bəzək xarakterli ciblərdir.

Qadın geyimlərində əksər hallarda funksional-dekorativ ciblərdən istifadə olunur. Ciblərin formasına konusturuksiyasına ölçüsünə yerləşdiyi yerə və bəzəyinə görə dəbin böyük rolu vardır. Ciblər əsasən 3 qrupa bölünür.

1.Üstən qoyma ciblər

2.Kəsik ciblər

3.Tikişdə yerləşən ciblər.

Bunların hər biri özünə məxsus müxtəlifliyə malikdir. Kəsik ciblər vəzyətinə görə yan və döş kəsim yönəlişinə görə -**şaquli üfiqi maili** kəsilməsinə görə **düz xətli** formalı ağzının işlənməsinə görə **listikli qapalı qapaqlı köbəli kantlı ramkalı** və.s növlərə ayrılırlar.

Üstən qoyma ciblər yuxarıdan yandan hazırlana bilər. Onlar listiklə cibi qapağı ilə ağız hissəsi qatlamaqla fiqurlu və.s ola bilərlər.

TİKİŞDƏ YERLƏŞƏN CİBLƏR

Donlarda koftalarda və digər üst geyimlərində üst ciblərdən və tikişdə yerləşən ciblərdən daha çox istifadə olunur.Tikişlərdə relyef qabaq hissənin bükülklərində yerləşən ciblər kəsilməyən ciblərdir.Onlar listiklə köbə ilə və hissənin kənarını qatlamaqla işlənilir.Əsasən qabaq hissənin tərəfləri iki hissədən ibarət olduqda tikişdə yerləşən ciblərdən istifadə olunur.Hissələr birləşdirildikdə cib yerin tikilməmiş saxlanılır və həmin açıqlıq modanın xarici görünüşünə müvafiq şəkildə hazırlanır.Belə ciblər listikli köbəli və ya hissənin kənarını qatlamaqla hazırlanır.Ciblər listiklə tikildikdə listinin hazırlanması və cibin yığılması əməliyyatı yerinə yetirilməlidir.Listikin hazırlanma qaydası kənarda ayrıca aparılır.Cibin yığılması isə belə icra edilir.Listik qapaq hissənin bort tərəfinə və ya yuxarıda qeyd etdiyimiz kimi bort tərəfinə və ya çərtilmiş yerə yerləşdirilərək üz-üzə qoyulur və cib astarı ilə birlikdə **1 sm enində tikilir**.Qadın tikiş məmulatlarında astarlıq parçadan olan cib astarı qabaq hissəyə birləşdirildikdə astarın kəsiyi **1 sm içəri qatlanır** və ondan **0.1-0.**2sm enində baxyalanır.Cib astarının ikinci yarısı qabaq hissənin yan kəsiyi tərəfinə **0.7sm enində** tikişlə calanır sonra cib astarı içəri tərəfə çevrilir və **0.1sm enində birləşdirilir**.

Qadın məmulatlarında astarın ətək hissəsi üz ilə birləşdirilməmiş olduqda ipək parçadan olan cib astarının kəsikləri xüsusi maşında tikilib iməklənir (haşiyələnir). Cib və listikin sonları maşınla və ya əl tikişi ilə bəndlənir.Cib cib atlığı ilə birgə tikilmədiyi üçün listiklərin sonunda bez və ya kolenkor parça tikəsi qoyulub bəndlənir və cib ütülənir.Cib listiksiz hazırlandıqda cibin girş xətti boyu əsas hissə tərəfdən **3-4sm enində** üstü yapışqanlı cib altlığı qoyulur.

ÜST CİBLƏR

Geyimlərdə geniş yayılmış üst ciblər formasına ölçüsünə konusturuksiyasina görə naxəşəna görünüşünə icra qaydasına və birləşdirilməsinə görə olduqca müxtəlifdirlər.Belə ciblər 2 mərhələdə hazırlanır.

1.Ciblərin hazırlanması

2.Qabaq hissəyə birləşdirilməsi

Üst ciblər yun suni dəri rezinləşdirilmiş plaşlıq parçalardan olan geyimlərdə astarla üzərinə pərdə çəkilmiş kapron parçalardan olan plaşlarda sırıqlı üstən əlavə xəz əsaslı matriallardan tikilən geyimlərdə isə astarsız tikilir.

Parça naxışlı olduqda **(zolaqlı mil-mil və damalı)** ciblərin qabaq hissəyə uyğunlaşdırılması üçün onlar nisbətən böyük biçilir.Bu halda cib qabaq hissənin üzərinə qoyulub naxışlar bir-birinə uyğunlaşdırıldıqdan sonra köməkçi ülgü ilə dəqiqləşdirilir və tikiş payı saxlamaqla artıq parça kəsilir.Cibin yuxarısı xarici görünüşünə görə bəzəksiz və ya listikə bənzər naxışa kəsik ilə yaxud kənarı düz xətli və ya əyri xətli olur.Cibin yuxarısını listiksiz hazırladıqda yapışqanlı və ya kətan kromka qoyulur.Yapışqanlı kromka üstü ilə yapışdırılır kətan kromka isə cibin qeyd olunmuş qatlanma xətti boyu qatlanan tərəfinə qoyulub qatlanma tərəfdən kənarı ilə tikilir.



Üst cibin yuxarı kəsiyinin işlənilməsi

19 . GECƏ KÖYNƏYİNİN KONSTRUKSİYYASI VƏ MODELLƏŞDİRİLMƏSİ

Gecə köynəyi biçilməsinə və modasına görə çox müxtəlifdir. Onlar yaxalıqlı yaxalıqsız qollu qolsuz boyun yeri müxtəlif formalarda biçilmiş ola bilər. Gecə köynəkləri alt dəyişək məmulatlarına aiddir. Pijamalar isə üst dəyişək geyimlərinə aid ola bilər. Gecə köynəkləri əsasən **hiqroskopikliyi** yüksək olan parçalardan hazırlanmalıdır. Gecə köynəkləri bütün gigyenik normalara cavab verməlidir. Belə ki gen-bol olmaqla yanaşı rahat olmalıdır bəzək əşyalarından ya heç istifadə olunmamalıdır. Əgər olunarsa çox sadə və xırda aksesuarlardan isdifadə olunmalıdır. Aşağıdakı şəkildə müxtəlif gecə köynəyi modelləri verilmişdir.

GECƏ KÖYNƏYİNİN ÇERTYOJUNUN QURULMASI ÜÇÜN ÖLÇÜLƏRİN GÖTÜRÜLMƏSİ

Gecə köynəyi bədənə gen bol oturduğu üçün onun çertiyojunu qurulması üçün bel yarım çevrəsinin və çanaq yarım çevrəsinin ölçüsünün götürülməsinə ehtiyac olmur. Əsas götürülən ölçülər bunlardır.

1.Byç- Boy yarım çevrəsi

2.Dyç- Döş yarım çevrəsi

3.Qç- Qol çevrəsi

4.Mu-məmulatın uzunluğu

Qol çevrəsinə və döş yarım çevrəsinə əlavə payların verilməsi məcburidir. Ölçülərin götürülməsi aşağıdaki şəkildə verilmişdir.



GECƏ KÖYNƏYİNİN HİSSƏLƏRİ

Gecə köynəyi əsasən 2 hissədən ibarət olur. **Arxa və ön hissə**. Arxa və ön hissədən boyun dairəsini çıxmaq şərti ilə qalan ölçülər eyni olur. Ön hissədə boyun kəsiyi formasına və ölçüsünə görə arxa hissədən seçilir. Belə ki ön hissədə boyun dairəsi nisbətən dərin kəsilmiş olur. Bu bədənin quruluşundan irəli gəlir. Boyunun çox hissəsi ön tərəfin payına düşür.

20 . Qol əsasının qurulması

Qollar müxtəlif konstruksiyalarda (bir, iki və üç tikişli, reqlan, bütöv, qabaq və arxa hissə ilə birlikdə, qabaq hissədən ayrı biçilən) hazırlanır. Qollar modeldə nəzərdə tutulan konstruktiv tələblərə cavab verməlidir. Qolun ağzı manjetli, manjetsiz, yamşaqlı, yamşaqsız, bəzəkli (naxışlı), büzməli və s. ola bilər. Donlarda və buna bənzər geyimlərdə qol astarsız hazırlanır.

Qolun ülgü çertyojunu qurmaq üçün qolun enini E_{qol}, qapalı qol yerinin hündürlüyü $H_{qol\ yer}$, qolun yuxarı dairəvi kəsiyinin hündürlüyünü $H_{q\ d}$ və uzunluğunu U_q, qol yerinin uzunluğunu $U_{q\ yer}$ və enini $E_{q\ yer}$ bilmək lazımdır. Biz bu ölçüləri əvvəlcədən hesablamağı öyrənmişik. Bununla belə arxa və qabaq hissələrin ülgü çertyojunda qol yerindən istifadə etməklə qolun yuxarı dairəsinin hündürlüyünü H_{qd} tapmaq mümkündür, yəni

$$H_{qy}d = ÇQs\text{-}0{,}4 \cdot E_{qo}ı_{yer} + 1{,}5$$

Qolun yuxarı dairəsinin qol yerinə uyğun gəlib-gəlmədiyini müəyyənləşdirmək üçün qolun yuxarı dairəsi ilə qol yerinin uzunluğu arasındakı fərqi, başqa sözlə, qol yerinin uzunluğunu U_{qyer} və onun şaquli diametrini $d_{qş}$ bilmək lazımdır .

Ülgü çertyojunda qol yerinin uzunluğunu, (Ç1Ç4 nöqtələri arasında) metal ölçü (şəridi) halqa ilə əyib ölçək. Alınmış kəmiyyətdən arxa hissənin qol yerində aparılacaq (ütü ilə) yığmanın miqdarını çıxaq.

Qol yerinin şaquli diametrini ölçmək üçün ülgü çertyojunda Çj və $Ç_4$ nöqtələrini düz xətlə birləşdirək və həmin xətti iki bərabər hissəyə bölüb m nöqtəsini qoyaq. Sonra həmin nöqtədən aşağı Q5Q6 xəttini kəsənə qədər şaquli düz xətt çəkib m_1 nöqtəsini alaq, mm_1 düz xətti açıq qol yerinin şaquli diametri olur.

Məlumdur ki, qolun yuxarı dairəsinin hündürlüyü qol yerinin qapalı konturuna bərabərdir, yəni $H_q = m_Jm_2$ onun minimum ölçüsü - yığması az olan qolda (88-104 ölçülü geyimdə) belə hesablanır:

$$m_1m_2 = mm_1 - (2{,}75 - 3{,}0)$$

Qolun oval tikiş payının qol tərəfə ütüləməklə yatızdırdıqda doluluğun qol əzələsini nəzərə alınıb m_Jm_2 aşağıdakı kimi qəbul olunur:

ölçüsü 88-92 olan geyim üçün – $m_1m_2 = \underline{mm}_1 - 2{,}5$

ölçüsü 96-104 olan geyim üçün - m_1m_2= $\underline{mm}_1$ - 2,0

ölçüsü 104-dən böyük olan geyim üçün - m_1m_2= $\underline{mm}_1$ - 1,5

Qolun qoltuqaltı səviyyəsindəki enini daha iki üsul ilə müəyyən edək: qol yerinin uzunluğundan $U_{q\ yer}$ və qolun yuxarı dairəsinin hündürlüyündən H_{qyd} asılı olaraq:

$$Eqoi = 0,5\ [1,25\ (U_{qyer} + ƏP_{qoy})-l,6\ m,m_2\ -1,8]$$

burada, $ƏP_{qoy}$ - qolun yuxarı dairəsindəki yığma payının miqdarıdır. Qolun yuxarı dairəsindəki yığmanın miqdarı qol yerinin uzunluğundan və parçanın çeşidindən asılıdır.

Beləliklə, üst geyimlərində qolun yuxarı dairəsindəki yığma qol yerinin uzunluğuna nisbətən 8-15 % arasında dəyişir.

2) Qolun istənilən ində nəzərdə tutulması onun qoltuqaltı səviyyəsində çiyin dairəsindən D_{qol} və qol dairəsindəki sərbəstlik payından asılı olaraq belə hesablanır:

$$E_q ol\ (istənilən\ ində) \qquad 0,5\ (D_{qo}ı + ƏP_{q()}$$

Qolun eni, $ƏP_{qd}$ verilən sərbəstlik payının miqdarından asılıdır.

21 . Birtikişli qollar

O nöqtəsindən bir-birinə perpendikulyar iki düz xətt çəkək . O nöqtəsindən aşağı şaquli qolun yuxarı dairəsinin hündürlüyünü ölçüb Q nöqtəsini alaq:

$$OQ=H_{qyd} = H_{qy}(l+H) + ƏP_{qoh}$$

Dirsək xəttini müəyyən etmək üçün O nöqtəsindən şaquli xətti OD qədər aşağı endirib D nöqtəsi adlandıraq.

$$OD = U_{qdir} + ƏP_{qoh} + ƏP_{çiy\ ah} + Ə\ A$$

Sonra qolun ağız xəttini müəyyən edib A nöqtəsini qoyaq:

$$OA = U_q\text{-}1{,}5 + ƏA$$

burada, 1,5 sm sərbəst kəmiyyətdir. Bu qol ağzı çəpinə kəsiləndə uzandığı üçün götürülür. Qolun uzunluğu ya fərdi qaydada ölçülməklə, ya da "Məmulat və qolun uzunluq şkalası"ndan götürülür.

Q_d və A nöqtələrindən sola üfüqi xətlər çəkib, O nöqtəsindən sola OO_1 kəsiyini müəyyən edək:

$$OO_1 = 0{,}5\ E_{qo}ı$$

O nöqtəsindən aşağı Q nöqtəsindən çəkilmiş üfüqi xətti kəsənə qədər şaquli xətt çəkib Q_d nöqtəsini qoyaq. O nöqtəsindən sola üfüqi xətt üzərində 2 sm ölçüb O_2 nöqtəsini, sonra O_1 və O_2 nöqtələri arasındakı məsafəni yarıya bölüb O_3 nöqtəsini nişanlayaq:

$$O_1O_3 = 0{,}5 \times O_1O_2 = O_3O_2$$

Bundan sonra O_1O_3 və 0_30_2 kəsiklərinin hər birini yenidən yarıya bölüb O_4 və O_5 nöqtələrini qoyaq. O_3 nöqtəsindən aşağı şaquli (Q nöqtəsindən çəkilmiş üfüqi xətti kəsənə qədər) düz xətt çəkib Q_1 nöqtəsini qeyd edək. O_3Q_1 xəttində köməkçi O_6 nöqtəsini müəyyən edək:

$$Q_1O_6 = 0{,}5\ (H_{qyd}\text{-}ƏP_{qoh})$$

Q nöqtəsindən çəkilmiş üfüqi xəttin üzərində qol dairəsinə toxunan köməkçi Q_2 nöqtəsini tapaq:

$$QQ2\ 0> 5\ P_{qo}l\ yeri$$

Q_d nöqtəsindən sola üfüqi Q_dQ_3 düz xəttini çəkək:

QdQ3 ~Q_dQ_2

- O_4 və Q_3 nöqtələrini birləşdirdikdə O_1 Q_d xəttini kəsən yerə Q_4 nöqtəsini qoyaq. Q_4 və O_6 nöqtələrini düz xətlə birləşdirək və həmin xətti OQ xətti kəsənə qədər uzadıb alınan nöqtəni Q_5 adlandıraq. O_5 və Q_5 nöqtələrini birləşdirməklə alman düz xəttin tən ortasında O_7 nöqtəsini qeyd edək.



Birtikişli qolun çertyoju

22 . İkitikişli qollar

O nöqtəsindən bir-birinə iki perpendikulyar düz xətt çəkək. O nöqtəsindən aşağı şaquli düz xətt üzərində qolun yuxarı dairəsinin hündürlüyünü ölçüb Q nöqtəsini qoyaq, yəni

$$OQ = H_{qyd} = H_{qyeri}\,(1 + H) + ƏP_{qoh}$$

burada, $ƏP_{qoh}$ - qolun oval tikişində parçanın qatlanması üçün qolun yuxarı dairəsinin hündürlüyünə verilən paydır. Bu şərtlə ki, qol yerində büzmə və qasma olmasın, qol yerinin oval tikişi qol tərəfdən salınsın.

Qolun yuxarı dairəsindəki yığma payını aşağıdakı kimi də hesablaya bilərik:

$$\boldsymbol{ƏP_{qoy} = U_{q\,yer} \times H}$$

burada, H - qol yerinin 1 sm uzunluğunda yuxarı dairə xəttindəki yığma normasıdır .

Qolun dirsək xəttini müəyyən edək, D nöqtəsini qoyaq:

$$OD = \boldsymbol{U_{qdirsək}} + ƏP_{qoh} + ƏP_{çiyalt} + ƏA$$

Burada, $ƏP_{çiy\ alt}$ - çiyin altlığının qalınlığına verilən əlavə pay; ƏA - qolun dirsəyə qədər uzunluğuna verilən əlavə artımdır. Qolun dirsəyə qədər olan uzunluğunun 1,5 % -ə qədər əlavə edilir. Qolun ağız xəttini müəyyən edib ona A nöqtəsi deyək, yəni

$$O\,A = \boldsymbol{U_{qol}} - 1{,}5 + ƏA$$

burada, U_{qol} - qol uzunluğu; 1,5 sm sərbəst kəmiyyətdir. Bu kəmiyyət qol ağzının çəpinə kəsilməsi nəticəsində qolun uzanması üçün nəzərə almır.

Qolun uzunluğu məmulatın və qolun uzunluq şkalasmdan götürülür və ya fərdi ölçmə üsulu ilə modelə uyğun müəyyən edilir.

Q, D, A nöqtələrindən sola üfüqi düz xətt çəkək. O nöqtəsindən sola üfüqi düz xətdə 00j kəsiyini müəyyən edək, yəni:

$$\boldsymbol{OO_1 = 5\,E_{qoi}}$$

O_1 nöqtəsindən aşağı şaquli xətt çəkək və onun Q nöqtəsindən sola çəkilmiş üfüqi xətti kəsən yerə - Q_d nöqtəsini qoyaq. O nöqtəsindən sola, üfüqi xətt üzərində 2 sm ölçüb O_2 nöqtəsini alaq. O_1O_2 nöqtələri arasındakı məsafəni yarıya bölüb həmin yerə O_3 nöqtəsi deyək, başqa sözlə:

$$O_1O_3 — 0,5\ O_1O_2 = O_3O_2$$



İki tikişli qolun çertyoju

Sonra O_1O_3 və O_3O_2 kəsiklərinin hər birini yenidən yarıya bölüb müvafiq O_4 və O_5 nöqtələrini qeyd edək.

O_3 nöqtəsindən aşağı, Q nöqtəsindən çəkilmiş üfüqi xətti kəsənə qədər düz xətt çəkib Q, nöqtəsini qoyaq. O_3Q_1 şaquli xəttində O_6 köməkçi nöqtəsini müəyyən edək:

$$\boldsymbol{Q_1O_6 = 0,5\ (H_{qo} - ƏP_{qoh})}$$

23 . REQLAN FORMALI QOLARIN MODELLƏŞDİRİLMƏSİ

Reqlan biçimli qollar ilk dəfə **19-cu əsrin sonunda** Avropa geyimlərində meydana gəlmişdir.Belə biçimli ilk geyim ordu-mundiri olmuşdur.nu orduya alman generalı Tordu Reqlan gətirmişdir və bu biçim generalın şərəfinə onun adı ilə adlandırılmışdır.İlk əvvəllər kişi geyimlərində təzahür edən reqlan biçimli qollar tezliklə qadın geyimlərindədə populyar olur.Reqlan biçimli məmulatın əsas xüsusiyyəti ondan ibarətdir ki belə məmulatlarda qol yeri xətti qapanır.Qol məmulatın çiyin kəsiyi ilə bir yerdə biçilir.Biçim aşağıdaki Varian Harda ola bilər.

1.Adi reqlan – qol yeri xətti kürəkdə və ətəkdə boyunun ən hündür mövqesində **1.5....2.5sm** aşağıdan başlanır və səsli əyri xətlə qoltuq altı küncə tərəf çəkilir.

2.Sıfır reqlan- ətəkdə və kürəkdə qol yeri xətti boyunun ən hündür nöqtəsində başlayır

3.Reqlan-paqon- Qol yeri çiyin xəttinə pralel ondan **4....8 sm** aralı və qolun bədənə birləşdiyi səviyyədə səlis oval şəkilli əyri ilə çəkilərək qoltuqaltı künc tərəfə istiqamətlənir.

4.Yarım reqlan .Qol yeri xətti çiyin xəttinin ortasından başlayır.

5.Reqlan fantazi Reqlan qol yeri xətti ətəkdə və kürəkdə orta xətdən başlanır və qolun bədənlə birləşdiyi səviyyədə səlis əyri ilə qoltuq altı çökəyə tərəf istiqamətlənir.Reqlan biçimli qolun bu formasından sonra ən müxtəlif formalar əldə etmək mümkündür.Formasına görə reqlan biçimli qollar bərabər enliləşdirilmiş enli ensiz aşağısı enliləşdirilmiş olurlar.Reqlan biçimli ensiz qollar nadir hallarda layhələndirilir.Çünki onlar qolun hərəhətinin sərbəstliyini çox məhdudlaşdırır.Adətən bel qolları qolun altına calaq verməklə layhələndirilir.Aşağısı ensiz qollar dirsək qarsağı ilə hazırlanır.Aşağısı enliləşdirilmiş qolları konus şəkilli eniləşmə yolu ilə əldə etmək olar.Uzunluqlarına görə reqlan biçimli qollar müxtəlif olurlar. Qısa, yarıya qədər uzun və s.

Qolun aşağısı isə köbə ilə manjet ilə kant ilə və başqa üsullarda emal edilə bilər.Reqlan biçimli qollar bir tikişli 2 tikişli və 3 tikişli ola bilərlər.Reqlan xəttinin müxtəlif variantlarda olması çiyin qurşağının formasına təsir edir.Məsələn . adi reqlan yarım reqlan və sıfır reqlan biçimli qollarda çiyin ensiz görünür.Qol yerinin dərinlii artdıqca bu effekt də artır.Reqlan paqon biçimli qollar geyimin çiyninidaha enli göstərir.Başqa sözlə reqlan xəttinin vəziyyətini və qolun konstruksiyasını dəyişməklə bədəndə olan qüsurları asanlıqla gizlətmək olar.


А2
П1
А4
а
А2
П1
П5
А4
б
А2
П1
П5
А4
в
А2
П1
П5
А4
г
А2
П1
П5
А4

24 . Yarımreqlan formalı qolların modelləşdirilməsi

Yarımreqlan biçimli məmulatların konstruktiv xüsusiyyəti ondan ibarətdir ki, onun çiyin xəttinin uzunluğu ümumi çiyinin uzunluğunun $\frac{1}{3}$ və ya $\frac{1}{2}$ hissəsini təşkil edir. Ön və arxanın çiyinin qalan hissəsi isə qol ilə birlikdə biçilir. Bu qol da reqlan kimi adətən iki tikişli olur. Bu zaman üst tikiş mütləq çiyinin tikişinin davamı olmalıdır. Belə halda əvvəlcə içəri tikiş birləşdirilir.

Tikişin eni 1,2-1,5 sm olur. Sonra qol arxa və ön hissəyə çərtiklərə uyğun birləşdirilir.

Tikişi ütüləyərkən hissələr bir tərəfə və ya ayrı-ayrılıqda arxa və ön tərəfə qatlanır.

Çiyin kəsiyi arxa və ön hissə ilə birlikdə bir dəfəyə elə tikilməlidir ki, arxa və ön hissənin tikişi qolun tikişi ilə üst-üstə düşsün.



25 . QOLLARIN MODELLƏŞDİRİLMƏSİ

Aşağdakı şəkildə bir neçə fantaziyalı qollar verilmişdir. Məsələn, fanar şəkilli və yelpik vari qollar.



"Fanar" şəkilli qolun modelləşdirilməsi



"Yelpikvari" enliləşdirilmiş qolun modelləşdirilməsi

Çiyinli məmulatlarla müqayisədə qolu bütöv biçilmiş məmulatların fərqi çoxdur.Qolu bütöv biçilmiş məmulatlarda qolun hərəkətinin sərbəstliyi müəyyən hədə qədər olur.Çiyinlə tikilmiş məmulatlarda qalın sərbəstliyi nisbətən çox olur. Ona görə də qolu bütöv biçilmiş məmulatlarda döş xəttinə qol dibinin dərinliyinə verilən payların miqdarı artırılır.Qolu bütöv biçilmiş məmulatların xarici görkəminə onların rahatlığına qolun yuxarı kəsiyinin mayillik bucağının təsir böyükdür. Maillik az olduqda geyimin həcmi çiyin oblastında böyük görünür.Lakin qolun sərbəstliyi çox olur. Qolun yuxarı kəsiyinin mayililik bucağından qolun enindən aslıdsır.Mayillilik bucağı və qədər böyük olarsa qol o qədər ensiz olar.Eninə görə qollar eni bərabər olan eni bərabər olmayan qollara ayrılırlar. Eni bərabər olan qollarda yəni qolun alt və üst kəsiyi xətləri bir-birinə paralel olur. Bu zaman qol çevrəsinə verilən pay ensiz qollarda **4-5 sm** enli qollarda **10-12 sm** olur. Paylar məmulatın növündən aslı olaraq seçilir. Eni bərabər olmayan qollara-**Bunlara aşağısı ensiz və aşağısı enliləşdirilmiş qolları misal gətirmək olar**. Birinci halda formanı qurma yolu ilə 2-ci halda isə yelpikvari enilşdirmə yolu ilə alırlar.

26 . Qol yerində və qolun çiyin dairəsində çərtiklərin yerləşdirilməsi

Qolu öz yerinə birləşdirmək üçün qol dairəsinə və qol yerinə nəzarət çərtikləri (nişanları) vurulmalıdır.

Ona görə də qol yeri və qolun dairəsi beş sahəyə bölünür:

Qol yerinin və qol dairəsinin sahələrə ayrılması

Sahələr	Göstəricilər			Yığma, %	
	Qol yerində	Qol dairəsində		İki tikişli qolda	Bir tikişli qolda
		İki tikişli	Bir tikişli		
I	**$P_{50}4$**	**$Q_5 41$**	**$Q_5 41$**	**13**	**13**
II	**$4\ D_4$**	**$41P_4$ı**	**$41\ P_{41}\ (0_3)$**	22	22
III	**P**51 **P**91	**Q**5**Q**9	**Q**5**Q**16	6	**16**
IV	**P**91**P**01	**QsQ**ıo	**O**11**Q**4	**24**	**24**
V	**P**01**P**1	**Q**1203	**Q_4P_4ı(0_3)**	**35**	**25**

Qol öz yerinə birləşdiriləndə qol dairəsinin çərtikləri ilə qol yerinin çərtikləri üst-üstə düşməlidir. Buna qol dairəsindəki çərtiklər arası yığmanın köməyi ilə nail olmaq olar.

Çərtiyin yeri yığmanın miqdarından asılıdır, başqa sözlə, o qol yeri ilə qol dairəsinin uzunluğu arasındakı fərqlə müəyyənləşdirilir:

$$ƏP_{yığma} = U_{qd} - U_{qy}$$



Qol yerinin uzunluğu ülgüdə $Ç_8$ (ÇQ və $Ç_4$ nöqtələri arasındakı əyri xəttin uzunluğudur.

Qolun altındakı qabaq çərtik Q_5 nöqtəsi hesab olunur. Qabaq hissənin qol yerində Q_6 nöqtəsindən yuxarı P_{50} nöqtəsini (çərtiyin yerini) tapaq:

$$Q_6P_{50} = QQ_5 + 0{,}5 \textit{an götürülür.}$$

P_{50} nöqtəsindən sola qabaq hissənin qol yerini kəsənə qədər üfüqi düz xətt çəkib P_{51} nöqtəsini qoyaq. P_{51} nöqtəsi qabaq hissənin aşağı çərtiyidir. Deməli, qolun Q_5 nöqtəsindəki çərtik, qol yerinin P_{51} nöqtəsindəki çərtiklə üst-üstə düşməlidir.

4 nöqtəsi qabaq hissədə qol yerinin yuxarı çərtiyidir. Qol dairəsində çərtiyin yerini müəyyən etmək üçün qol yerindəki P_{51} 4 məsafəsi ölçülür və ona 13 % yığma payı əlavə edilir. Qolda Q_5 nöqtəsindən yuxarı (yığma payı qədər qaldırılıb) qolun yuxarı dairəsində çərtik yeri üçün 41 nöqtəsini alaq:

$$Q_5 41 = P_{51} 4 + 13\% P_{yığ}$$

Çiyin kəsiklərini birləşdirən tikiş qabaq və arxa hissələrin yuxarı çərtiyi olur. Qol dairəsində yuxarı çərtiyin yerini müəyyən etmək üçün qabaq hissənin qol yerindəki 4 $Ç_4$ məsafəsinə 22 % yığım payı əlavə edib, qol dairəsindəki 41 nöqtəsindən yuxarıya ölçüb P_{41} nöqtəsini nişanlayaq. P_{41} nöqtəsi qol dairəsinin yuxarı çərtiyi hesab olunur. Deməli, qol dairəsindəki P_{41} nöqtəsi qol yerindəki çiyin tikişi ilə üst-üstə düşür:

$$41P_{41} = 4\ D_4 + 22\ \%\ P_{yığ}$$

İkitikişli qolun qabaq tikişinə münasib qol yerində çərtiyin yerini müəyyən etmək üçün qol dairəsində Q_5Q_9 nöqtələri arasındakı məsafəni ölçək və ondan 6 % yığma payını çıxaq. Bundan sonra P_{51} nöqtəsindən aşağı qol yeri xətti boyu qolda alman məsafə qədər ölçüb P_{91} nöqtəsi alaq:

$$P_{51}P_{91} = Q_5Q_9 - 6\%\ P_{yığma}$$

Birtikişli qolun alt tikişinə münasib qol yerində çərtiyin yerini müəyyənləşdirmək məqsədi ilə qol dairəsində Q_5Q_{16} nöqtələri arasındakı məsafəni ölçüb ondan 16 % yığma payını çıxaq. Sonra qol yerində P_{51} nöqtəsindən aşağı qol yeri xətti boyu eyni ilə ölçüb P_{91} nöqtəsini qoyaq.

Qol yerində ikitikişli qolun dirsək tikişinin yerini müəyyən etmək üçün qol dairəsində QgQıo nöqtələri arasındakı məsafədən 24 % yığma payı çıxaq və alınmış kəmiyyəti P_{91} nöqtəsindən sola ölçüb P_{01} nöqtəsi qeyd edək:

$$P_{91}P_{01} - Q_8Q_{10} - 24\%\ P_{yığma}$$

Birtikişli qolun dirsək tikişinin münasib vəziyyətində arxa hissənin qol yerində çərtik yerini müəyyən etmək üçün qolun $O_{11}Q_4$ sahəsi ölçülür, bundan 24 % yığma payı çıxır. Qalan kəmiyyət qədər qol yerində P_{91} nöqtəsindən sola ölçüb P_{01} nöqtəsi qoyulur. Bu nöqtə arxa hissənin qol yerində birtikişli qolun dirsək xətti səviyyəsindəki çərtik yeri olur:

$$\mathbf{P_{91}P_{01} = O_{11}Q_4 - 24\%\ P_{yığma}}$$

İkitikişli qolun dairəsindəki sonuncu $Q_{12}P_{41}$ və birtikişli qolun dairəsindəki sonuncu Q_4P_{41} sahələrində qol yerinin $Ç_1P_{01}$ nöqtələri arasındakı yığma payı uyğun olaraq ikitikişli qol üçün 35 %, birtikişli qol üçün isə 25 % qalır.

Arxa hissənin qol yerində ütü ilə yığılan $Ç_1Ç_8$ sahəsi çərtik bölgüsündə iştirak etmir.

27 . QADINLAR ÜÇÜN DÜZ SİLUETLİ BULUSKALARIN HAZIRLANMASI

Buluskalar pambıq kətan ipək kapron və.s parçalardan hazırlana bilər.Digər qadın geyimləri kimi buluskalarda müxtəlif modellərdə hazırlanır.Onlar yaxalıqlı yaxalıqsız qolu-qolsuz cibli cibsiz hazırlana bilər.Siluetinə görə buluskalar düz boş bədənə yatımlı olurlar.Buluskaları yupkaların və ya şalvarın içərisinə qoymaqla və ya üstünəsalmaqla geyinirlər.Buliskanın kürək hissəsi əksər hallarda bütöv bəzən isə koketka büzmə qatlama və s. ola bilər.Ön hissə isə bütöv və ya iki hissədən ibarət olur.Ön hissə ilgək düymə ilə(moniya) zəncirbəndlə işlənə bilər.Modeldən aslı olaraq buluskanın ön hissəsindədə qatlama büzmə kaketka və s. Kimi detallardan istifadə etməklə hazırlaa bilər.Buluskanın ətəyi isə düz tikişlə qatlanmaqla kəmərlə valanla işlənə bilər.Qollar buluskada adətən yaxalığa maniketə uyğun hazırlanır.Qolların hazırlanması qadın donlarında olduğu kimidir.Təyinatına görə buluskalar **2 yerə bölünür**.

1.Gündəlik buluskalar

2.Təntənəli günlərdə geyinmək üçün olan buluskalar.

Gündəlik geyinmək üçün olan buluskalar adətən ucuz parçalardan hazırlanır.Məsələn. **pambıq kətan suni ipək** və s. Onlar əsasən sadə biçimli rahat və bəzəksiz olur.Təntənəli mərasimlər üçün buluskalar isə daha bahalı parçalardan tikilir.Məs**. təbii ipək** və s. Donluq parçalar.Bunlardan başqa təntənəli günlər üçün olan buluskaların hazırlanmasında müxtəlif bəzək əşyalarında isdifadə edilir.Məs. **kurjiva kaketka biser muncuq** və s.Bu cür buluskalar bir-birindən forması və quruluşu ilə bir-birindən fərqlənirlər.Buluskalar eyni zamanda ciddi iş geyimi kimi də qəbul olunurlar.Aşağıdaki şəkildə bir neçə buluskanın görünüşü verilmişdir.

28 . Qadınlar üçün qasmalı bluzkanın konstruksiyası

Bluzkalar pambıq, kətan, ipək, kapron və yun parçalardan hazırlanır. Bluzkalar donlarda olduğu müxtəlif modellərdə hazırlana bilər. Onlar yaxalıqlı, qollu, cibli və ya onlarsız ola bilər. Siluetinə görə onlar düz, sərbəst və bədənə yatımlı olur. Bluzkaları yubkaların və ya şalvarın üstünə və içinə qoymaqla geyinirlər. Bluzkanın kürək və ya arxa hissəsi əksər hallarda bütöv, bəzən isə koketka, qasma, qatlama və s. ola bilər.

Ön hissə isə bütöv və ya 2 hissədən – kəsik ola bilər. Modeldən asılı olaraq bluzkanın ön hissəsində də koketka, qasma, qatlama və s. başqa detallar ola bilər.

Bluzkanın ətəyi düz tikişlə qatlanmış, kəmərlə, valanla və müxtəlif qasmalarla ola bilər. Qollar yaxalıq, boyun kəsiyi, ilgək-düymə yeri əsasən donlarda olduğu kimidir.

Təyinatına görə bluzkalar gündəlik və təntənəli mərasimlər üçün iki hissəyə bölünür. Gündəlik geyinmək üçün bluzkalar ucuz parçalardan (pambıq, kətan, süni ipək və s.) tikilir. Onlar əsasən sadə biçimli, rahat və bəzəksiz olur.

Təntənəli mərasimlər üçün buluzkalar isdə daha bahalı parçalardan tikilir. (təbii ipək, donluq parçalar və s.) Bundan başqa belə bluzkalarda müxtəlif bəzəklərdən istifadə olunur. Məs: krojeva, koketka, biser-muncuq və s. Bu növ bluzkalar mürəkkəb forması və bəzək detalları ilə seçilirlər

29 . Boyun kəsiyinin formasında köbənin konstruksiyası

Yaxalıqsız paltarda boyun kəsiyi dairəvi, düzbucaqlı, ovalşəkilli və eləcə də bucaqla ola bilər.

Boyun kəsiyinin modelləşdirilməsi düz paltarın əsasının ülgüsü üzərində yerinə yetirilir.

1 . Kağız list üzərinə paltar əsasının ülgüsünün kontur kontur xətti çəkilir

2 . Məlumat xəritəsindən istifadə edərək boyun xətti üzrə modelləşdirmə işi aparılır.

3 . Hazır ülgü kəsilir.



30 . Qadınlar Üçün Qolu Bütöv Biçilmiş Bluzkanın Konstruksiyası

Qolun bütöv biçilmiş məmulatların əsas xüsusiyyəti qolun kürək və ön hissə ilə birlikdə biçilmişdir.Bu zaman qollar formasına ölçüsünə qol yerinin dərinliyinə konstruksiyasına dekorativ vasitələrinə görə bir-birindən fərqlənir.Konstruksiyasına görə bütöv biçilmiş qollar bir-birindən aşağıdaki kimi fərqlənir.

1.Tikişsiz qollarda qolun yuxarı konturu parçanın qat xətti boyunca üfüqi yerləşdirilir.Bu zaman qolun alt kəsiyi olmur.(şəkil a)

2.Bir tikişli qollarda qolun yuxarı konturu parçanın qat xətti üzrə üfüqi yerləşdirilir.Bu zaman qolun alt kəsiyi olur.Yəni qolda bir tikiş olur.-**Alt tikiş**(şəkil b)

3.İki tikişli qollarda qolun yuxarı kəsiyi ya çiyin tikişinin davamı olur yada onunla **10-30 dərəcə bucaq əmələ gətirir**.(şəkil c)



BÜTÖV BİÇİMLİ QOLLU MƏMULATLARIN HAZIRLANMASI

Məmulatlarda bütöv biçilmiş qollardan geniş istifadə olunur.Bütöv biçilmiş qollar uzunluğuna görə **qısa uzun dördə üç səkkizdə yeddi** ölçülərdə olur.Bütöv biçimli məmulatların əsas xüsusiyyətlərindən biri qolun ön hissəsinin məmulatın ön hissəsi ilə birlikdə qolun arxa hissəsinin isə məmulatın arxa hissəsi ilə birlikdə biçilməsidir.Bu zaman qolda **2 tikiş olur**.

1.Üst tikiş

2.Alt tikiş

Üst tikişə qolun kənar tikişi alt tikişə isə qolun içəri tikişi deyilir.kənar tikiş çiyin tikişinin davamı alt tikiş isə məmulatın yan tikişinin davamı olur.

İmtahan sualları

1. Geyimlərin hissələrinin konstruksiyası
2. Ləçək və önlüyün hesabatı və çertyojunun qurulması
3. Qadın geyimlərinin çeşidləri
4. Çiyinli geyimlər
5. Kəmərli geyimlərin konstruksiyası və modelləşdirilməsi
6. Düz yubkanın hesabatı və çertyojunun qurulması
7. Düz yubkanın modelləşdirilməsi
8. Koketkalı düz yubkalar
9. Konus şəkilli yubkaların konstruksiyası və modelləşdirilməsi
10. Konus şəkilli yubkaların növləri
11. Bir tərəfə yatan qatlamalı düz yubka
12. "Günəş" yubkanın hesabatı
13. "Günəş" yubkanın ülgülərinin parça üzərində yerləşdirilməsi
14. "Yarım günəş" yubkanın hesabatı
15. Qadın şalvarının əsasının konstruksiyası
16. Gen-bol biçimli şalvarlar
17. Gen-bol biçimli şalvarının modelləşdirilməsi
18. Ciblərin hesabatı və qurulması
19. Gecə köynəyinin konstruksiyası və modelləşdirilməsi
20. Qol əsasının qurulması
21. Birtikişli qollar
22. İkitikişli qollar
23. Reqlan formalı qolların modelləşdirliməsi
24. Yarım reqlan formalı qolların modelləşdirilməsi
25. Qolların modelləşdirilməsi
26. Qol yerində və qolun çiyin dairəsində çərtiklərin yerləşdirilməsi
27. Qadınlar üçün düz siluetli bluzkanın konstruksiyası
28. Qadınlar üçün qasmalı bluzkanın konstruksiyası
29. Boyun kəsiyinin formasında köbənin konstruksiyası
30. Qadınlar üçün qolu bütöv biçilmiş bluzkanın konstruksiyası

Ədəbiyyat

1 . G.H.Alıyeva “Geyimlən konstruksiyası və modelləşdirilməsi”

2 . Əliyev A.S, Zalov B.Z “Geyimlərin konstruksiya edilməsi” Bakı 2012

3 . Cəfərova S.M, Xəlilova Z.İ. “Qadın geyimlərinin konstruksiya edilməsinin əsasları” Bakı 2011

4 . Orucov Ə.N, Şamxalov O.Ş. “Geyimlərin modelləşdirilməsi və konstruksiya edilməsinin əsasları”

5 . Əliyev A.S, “Özün biç, özün tik”